## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı** bu problemin Azərbaycan sənətşünaslığında ilk dəfə qoyulmasından irəli gələrək, orta əsrlər memarlığında istifadə olunan müxtəlif bədii-dekorativ tərtibat üsullarının və materialların interyer və eksteryerlərdə tətbiqini həmin abidələrə həmdövr olan kitab miniatürlərində təhlilindən irəli gəlir.

Orta əsrlərin əlyazma kitablarında dünyəvi feodal düşüncəyə əsasən, klassik ədəbiyyatın müxtəlif süjetlərini əks etdirən miniatür-illüstrasiyalar yaranmışlar. Bu miniatürlərdə bir çox hallarda, hadisələr müxtəlif növ və təyinatlı memarlıq tikililərin interyerində və ya eksteryerində təsvir olunmuşlar. Belə təsvirlər sinxron mənbə kimi o dövrün dekorativ tərtibat problemlərini araşdırmaq imkanları yaradırlar.

Əlyazma kitabların miniatürləri şərti və dekorativ xarakter daşımışlar. Memarlıq tikililərin təsviri zamanı rəssamlar bilavasitə naturanı müşahidə metodundan istifadə etməmişlər. Əksər halda təsvirlər yaddaş əsasında və ya mövcud tip əsasında yaratmışlar. Buna baxmayaraq, bu günə kimi gəlib çatmış bir çox tarixi memarlıq abidələri, xüsusilə də onların dekorativ tərtibatları, miniatür təsvirlərinin kifayət qədər dəqiq və realistik olmalarını sübut edir.

Miniatürlərdəki memarlıq tərtibatı nümunələrini Sultaniyədəki "Olcaytu məqbərəsi" (1320), Təbrizdəki "Göy məscid" (1465), Bakıdakı "Şirvanşahlar saray kompleksi" (XV əsr) və s. bu günə kimi gəlib çatmış abidələrlə müqayisədə, həmin təsvirlərdəki dekor prinsiplərinin və üslublarının nə dərəcədə real olmasını müşahidə etmək olar.

Nəzərdən qaçırmaq olmaz ki, bu günə kimi gəlib çatmamış bir çox memarlıq abidələrindəki dekorativ tərtibat nümunələri əbədi olaraq itirilmişlər. Miniatür təsvirlərdə qalmış belə dekorativ tərtibat nümunələri o dövrün memarlıq tərtibatı məsələlərinə aydınlıq gətirməkdə mötəbər mənbə kimi istifadə oluna bilər.

Dissertasiyada xronoloji ardıcıllıqla aparılmış tipoloji və bədii təhlil belə dekorativ tərtibatların estetik prinsiplərini, üslub xüsusiyyətlərini, bədii-texnoloji problemlərini müəyyən etməyə imkan verir.

**Problemin işlənmə dərəcəsi**. Orta əsrlər təsviri incəsənəti və xüsusilə də miniatür sənəti müxtəlif bucaqlardan bir çox tədqiqatçının diqqətini cəlb etmişdir. Belə tədqiqatların əsası faktoloji tədqiqatlar təşkil etmişdir. Əlyazmaların tarixi, mənşəyi, xəttat, rəssam və kitab dekoratorların bu və ya o əlyazmada iştirakını müəyyən edən belə tədqiqatlar sonrakı xüsusi tədqiqatların aparılması üçün faktoloji və metodoloji baza kimi istifadə olunmuşlar. "Miniatürlər təsvirlər əsasında geyimin inkişafı, "Miniatür təsvirlər əsasında batal (müharibə) səhnələrin təhlili", "Miniatür sənətində mənzərə janrı" və s. kimi, bu növ xüsusi tədqiqatlar həmin miniatür təsvirlərinin zəngin informativliyə malik olmalarını təsdiq etmişdir.

Orta əsrlər əlyazma kitabların miniatürləri barədə faktoloji və metodoloji problemlər bir çox xarici tədqiqatçıların əsərlərində təhlil olunmuşlar. Onların arasında Arnold T., EttinqauzenR., Robinson B., Qrey B., Qrube E., Rays D., və başqaların adlarını çəkmək olar. Azərbaycan tədqiqatçılarından bu istiqamət Qazıyev A., Kərimov K., Aslanov E., Həsənzadə C., Mehdi N., Bayramov T., Sadıxova S. və digərlərin elmi əsərlərində öz əksini tapmışdır.

Miniatür sənətinin müxtəlif tarixi, bədii-estetik problemlərinə toxunan bu tədqiqatçılar bilavasitə miniatürlərdəki memarlıq təsvirlərindəki dekorativ tərtibata xüsusi tədqiqat obyekti kimi baxmamışlar.

«Азербайджанская миниатюрная живопись XIV-XVII веков как источник по истории костюма» (S.Sadıxova, 1990), "Müasir təsviri sənətdə Azərbaycan miniatür ənənələri" (D.Şirzadova, 2001), "XIII əsrin axırı – XV əsrin əvvəllərində Təbriz miniatür məktəbinin yaranması və inkişafı" (C.Həsənzadə, 2002), «XIII-XVI əsrlər Azərbaycan miniatür sənətində batal mövzu» (A.Əfəndiyev, 2005), "Şərq miniatür rəngkarlığında improvizasiyanın rolu" (R.Nəzirov, 2007) s. kimi, bu növ xüsusi tədqiqatlar həmin miniatür təsvirlərinin zəngin informativliyə malik olmalarını təsdiq etmişdir.

Xülaku dövründə əlyazma kitabların miniatürlərini tədqiq edən C.Həsənzadə bu miniatürlərdə epik və tarixilik prinsiplərinə toxunaraq saray tikililərin təsvirində rəssamların bir neçə baxış nöqtəsindən istifadə etmələrindən söhbət açır (Джамиля Гасанзаде. Зарождение и



*Namiq Kamran Abdullayev*

**Artistic designof interiorsand exteriors based on the medievalminiatures**

**SUMMARY**

Abdullayev Namig Kamran's dissertation "the Art decision of interiors and ex-terriers on materials of medieval miniatures" is devoted studying of stylistic formation and is art-technical problems of decorative registration of architectural constructions.

Research consists of the Introduction, three heads, the Conclusion, the list of the used literature and the special supplement in the form of an album of illustrations.

In "Introduction" the urgency, degree of a level of scrutiny, research border, objects and an object of research are considered. Main objectives and problems, scientific novelty and practical value of research are defined, data about approbation are given, to structure and volume to the dissertation.

I Chapter of the dissertation, is called "Decorative registration of architectural monuments on miniatures hand-written kqiq XIII - XIY centuries". In the head styles, motives and is art-technical ways of dressing various to destination the architectural constructions represented in book miniatures XIII - XIY are investigated centuries.

II Chapter of the dissertation, is called "Art features of registration of architectural interiors and ex-terriers in miniatures of manuscripts XY of a century". In the head analizituötsə architectural images and decorative registration of interiors and ex-terriers under images on miniatures of hand-written books XY of a century. The analysis of images of architectural monuments in manuscripts, soxdannıx during the Timuridsky epoch, and also, in board of dynasties Gara-gojunlu and Ag-gojunlu has revealed new tendencies in style and dressing methods.

III Chapter of the dissertation is called "the Condition of art of architectural dressing in on miniatures of hand-written books XYI-XYII of centuries". In the head images of architectural structures and their decorative registration in rkuopisnıx books XYI-XYII of centuries are described and analyzed. As a result of the spent analysis principles, styles and ways of dressing of interiors and ex-terriers of various architectural constructions are revealed.

In the conclusion of the head features of an architectural decor in constructions of the developed Middle Ages are designated.

*Намиг Камран оглы Абдуллаев*

## ХУДОЖЕСТВЕННОЕ РЕШЕНИЕ ИНТЕРЬЕРОВ И ЭКСТЕРЬЕРОВ ПО СРЕДНЕВЕКОВЫМ МИНИАТЮРАМ

## Р Е З Ю М Е

Диссертация Намика Камран оглы Абдуллаева "Художественное решение интерьеров и экстерьеров по материалам средневековых миниатюр" посвящена изучению стилистического формирования и художественно-техническим проблемам декоративного оформления архитектурных сооружений. Исследование состоит из Введения, трех глав, Заключения, списка использованной литературы и специального Приложения в виде альбома иллюстраций. Во "Введении" рассматриваются актуальность, степень изученности, границы исследования, обьекты и предмет исследования. Определены основные цели и задачи, научная новизна и практическая ценность исследования, даны сведения об аппробации, структуре и обьеме диссертации.

**I Глава** диссертации, называется "Декоративное оформление архитектурных памятников по миниатюрам рукописных кгиг XIII - XIV веков". В главе исследуются стили, мотивы и художественно-технические способы декорирования различных по назначению архитектурных сооружений, изображенных в книжных миниатюрах XIII - XIV веков.

**II Глава** диссертации, называется "Художественные особенности оформления архитектурных интерьеров и экстерьеров в миниатюрах рукописей XV века". Анализ изображений архитектурных памятников в рукописях, созданных в Тимуридскую эпоху, а также, в период правления династий Кара-койунлу и Ак-койунлу выявил новые тенденции в стиле и методах декорирования.

**III Глава** диссертации называется "Состояние искусства архитектурного декорирования по миниатюрам рукописных книг XVI-XVII веков". В главе описываются и анализируются изображения архитектурных строений и их декоративное оформление в рукописных книгах XVI-XVII веков. В результате проведенного анализа выявлены принципы, стили и способы декорирования интерьеров и экстерьеров различных архитектурных сооружений.

В Заключении подводятся итого исследования.



развитие тебризской миниатюрной живописи в конце XIII – начале XV веков. Баку, 1999. стр. 51).

Təbriz miniatür məktəbi və onun dahi nümayəndəsi Soltan Məhəmməd miniatürlərini tədqiq edən görkəmli miniatür tədqiqatçısı Kərim Kərimov miniatürlərdə təsvir olunanlar barədə danışanda qeyd edir ki, "miniatürlərdə qeyri-real, həyatilikdən uzaqlaşan heç bir şeyə rast gəlinmir" (Керимов К. Султан Мухаммед и его школа. М.1970. стр.24).

Miniatürlərdə saray və imarətlərin təsvir prinsipinə toxunan Orta Asiya tədqiqatçıları Q. Puqaçenkova və O.Qalerkina belə təsvirlərdə memarlıq motivinin çoxplanlı olmalarından xəbər verərək, belə təsvirlərin real məişət görüntüləri əsasında yaradılmasını iddia edir. (Г.Пугаченкова, О.Галеркина. Миниатюры Средней Азии. М.1979. стр.144).

Tədqiqatın məqsədi və vəzifələri qoyulmuş problemdən irəli gələrək, aşağıdakılardan ibarətdir:

Əsas məqsəd Yaxın və Orta müsəlman Şərqində orta əsrlər ərzində yaradılmış əlyazma kitablardakı miniatür təsvirləri təhlil edərək, onlarda təsvir olunmuş müxtəlif təyinatlı memarlıq tikililərdə tətbiq olunmuş dekorativ tərtibat növlərini, onların bədii üslubunu, estetik və bədii-texnoloji prinsipləri müəyyən etməkdir.

Bu məqsədə çatmaq üçün tədqiqat qarşısında aşağıdakı vəzifələr durur:

- Əlyazma kitabları bəzəyən miniatürləri memarlıq təsvirləri baxımından sistemləşdirmək və xronoloji ardıcıllıqla memarlıq təsvirlərin inkişafını izləmək;
- Miniatürlərdə təsvir olunmuş memarlıq abidələrinin dekorativ tərtibatlarını, onların məzmun və forma göstəricilərini, kompozisiya və materialların həmin tərtibatlarda tətbiqini müəyyən etmək;
- Dekorativ tərtibatların müxtəlif təyinatlı tikililərdə dəyişməsini və inkişafını araşdıraraq, memarlıq növü üçün tipoloji tərtibat prinsiplərini müəyyən etmək;
- İnteryer və eksteryerlərdə təsvir olunmuş dekorativ tərtibat prinsiplərinin, metodların və üslubların fərqini müəyyən etmək;

- Dekorativ tərtibatlarda istifadə olunmuş rəng, ahəng, faktura göstəricilərini müəyyən edərək, həmin tərtibatın mövcud olduğu tikiliyə uyğunluğunu müəyyən etmək;

- Tərtibatın zənginliyini və kamilliyini təhlil edərək, tikilinin feodal cəmiyyətin hansı təbəqəsinə məxsus olmasını müəyyən etmək.

Tədqiqatın nəzəri-metodoloji əsaslarını dünya sənətşünaslığında miniatür sənətinin araşdırılmasına həsr olunmuş elmi-nəzəri fikirlər və faktlar təşkil edir. Metodoloji baza kimi tanınmış miniatürşünasların əldə etdiyi müddəalar və qənaətlər istifadə olunmuşlar.

Tədqiqatın digər metodoloji bazasını dekorativ sənətlərin tədqiq və təhlil metodikası təşkil edir. Dekorativ sənətin memarlıqla üzvü vəhdət təşkil etməsi prinsiplərinin araşdırılması tədqiqatın metodologiyasını təşkil edərək, məzmun və forma vəhdətini müəyyən etməyə köməklik edir.

Bədii formanın və məzmunun inkişafını müəyyən edərək, xronoloji ardıcıllıq prinsipinə riayət edilmişdir.

Ayrı-ayrı miniatürlərdə memarlığın dekorativ tərtibat təsvirlərinin mövcudluğu və qiymətləndirilməsi sənətşünaslıqda geniş istifadə olunan analiz və sintez metodlarından bəhrələnməyə sövq etmişdir.

**Tədqiqatın hüdudları.** Dissertasiyanın coğrafi hüdudları Ön Asiya, Qafqaz, Orta Asiya, Hindistan regionlarında yaradılmış əlyazma kitabların miniatürləri təşkil edir. Bu regionların miniatür sənəti sahəsində dərin və zəngin ənənələri olması həmin əlyazmalardakı miniatürləri sistemli şəkildə tədqiq etmək imkanları yaradır.

Yüz illərlə burada davam edən müsəlman təsviri incəsənət ənənələri qəlibləşərək kanon xarakterini kəsb etmişlər. Bu kanonların və estetik prinsiplərin əlyazmadan-əlyazmaya izlənməsi tədqiqat predmetinin daha obyektiv işıqlandırılması üçün əlverişli şərait yaratmışdır.

Tədqiqatın zaman çərçivələri 14-17-ci əsrləri əhatə edir. Məhz bu zaman intervalında adları çəkilən miniatür mərkəzlərində təsvirçilik ənənələri bərqərar olmuşlar. Bununla belə, 400-illik inkişaf keçirmiş miniatür sənətində memarlıq tikililərin təsvirinə və onların dekorativ



2. Orta əsrlər memarlıq abidələrində dekorativ tərtibat (kitab miniatürləri əsasında). Mədəniyyət dünyası. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. № XIX 2010.
3. Hulakülər dövrü miniatür sənətində memarlıq abidələrin dekorativ tərtibatı. Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və incəsənət İnstitutunun elmi toplusu "İncəsənət və mədəniyyət problemləri" №5(31) Bakı 2010. Səh. 235
4. Orta əsrlərdə saray və yaşayış evlərinin dekorativ tərtibatı. Əlyazma kitabların miniatürləri əsasında. "Mədəni maarif" jurnalı. №11. 2010. Səh. 62
5. Декоративное убранство средневековых дворцов (по изображениям рукописных книг). Материалы Международной научной конференции "Национальные образы мира в художественной культуре"(8-9 ноября 2010 года). Кабардино-Балкарский Государственный Университет. Нальчик. 2010. Стр. 376.
6. Абдуллаев Н.К. Декоративное убранство средневековых дворцов (по изображениям рукописных книг). Материалы Международной научной конференции "Национальные образы мира в художественной культуре"(8-9 ноября 2010 года). Кабардино-Балкарский Государственный Университет. Нальчик. 2010. Стр. 376.
7. Cəlairilər dövrü kitab miniatürlərində memarlıq dekoru. Mədəniyyət dünyası. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. № XXI. Bakı 2011.

Qəzvini nin "Yaradılmışların möcüzəsi" (Aja'ib al-Makhluqat) əlyazmasındakı "Ağaca dırmaşmış sincab) miniatüründə açıq-aydın nəzərə çarpır. Miniatürdə yalnız evin fasadının təsvir olunmasına baxmayaraq, evin zəngin və incə tərtibata malik olması aydın görünməkdədir.

Şah Abbas dövründə köçürülmüş "Şahnamə" əlyazması erkən səfəvilər dövrünə aid miniatürlər ənənələrini dirçəltmək təşəbbüsünü nümayiş etdirir. 1614-cü ildə İsfahanda yaradılmış bu əlyazmada memarlıq tikililərin tərtibatı əvvəlki dövrlərdə olduğu kimi kifayət qədər tam-təraqlı təsvir olunmuşdur.

Beləliklə, 16-17-ci əsrlərdə memarlıq tikililərin dekorativ tərtibatının istər interyer, istərsə - eksteryer tərtibatlarının əlyazma kitablardakı miniatürlərə əsasən təhlili aşağıdakı nəticələrə gəlmək imkanı verir:

1. 16-cı əsrin 20-ci illərindən başlayaraq, təsvir olunmuş memarlıq tikililəri real həcm-məkan xüsusiyyətlərini əks etdirərək, binaların daha əhatəli görünüşünü əks etdirirlər. Bu zaman həmin binalardakı dekorativ tərtibat daha böyük sənətkarlıqla təqlid olunmağa başlayır;

2. 16-cı əsrin 30-50-ci illəri bütövlükdə sənətkarlığın yüksəliş mərhələsi olduğundan təsvir olunmuş memarlıq tikililəri çox-həcmli yaşayış kompoleksləri kimi təsvir olunurlar. Bu vaxt miniatürçü rəssamlar həmin binaların daxili və xarici divarlarını bəzəyən ornamental və süjetli dekoru xüsusi həvəslə təsvir etmişlər. Sənətkarlar memarlıq naqqaşlarını yaradarkən müxtəlif kompozisiyalardan və rəngarəng materiallardan istifadə etmişlər.

3. 17-ci əsr əlyazmalarındakı memarlıq dekorların təsvirləri bu sənətin tənəzzülündən xəbər verir. Bir çox hallarda ornamental dekor və onun koloriti şərti olur və memarlıq quruluşuna süni olaraq daxil edilmiş (yamaq) bayağı dekor kompozisiyalarından ibarət olmuşdur.

NƏTİCƏdə tədqiqatın müddəa və nəticələri yekunlaşdırılır.

**Dissertasiya mövzusuna dair müəllif tərəfindən nəşr olunmuş elmi məqalələr:**

1. Изображения средневековых Восточных дворцов в рукописных книгах XVI – XVII веков. Вестник. Казахский национальный Университет имени Аль-Фараби. №6(130). Алматы 2010. Стр.313



tərtibatına münasibət dəyişmişdir. Bu dəyişkənlik real memarlıq və naqqaşlıq mühitində baş verən dəyişiklikləri əks etdirmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini orta əsrlərdə Yaxın və Orta müsəlman Şərqində yaradılmış əlyazma kitabları bəzəyən miniatür – illüstrasiyalar təşkil edir. Miniatür-illüstrasiyalarda təsvir olunmuş memarlıq abidələri(tikililər) dövrün tələblərinə uyğun bəzək (dekor) sistemi ilə zənginləşdirilmişlər. Təsvir olunmuş müxtəlif təyinatlı binaların interyer və eksteryerlərində nəzərə çarpan dekor elementləri və kompozisiyaları tədqiqatın əsas obyekti qismində çıxış etmişlər.

Tədqiqatın predmetini Orta əsrlər memarlıq abidələrində dekorativ tərtibat üsullarının istifadəsi, interyer və eksteryerlərdə mövcud olmuş dekorativ tərtibat üsullarının və üslublarının inkişafının izlənməsi təşkil edir. Dekorativ tərtibatlarda məzmun və forma vəhdəti, sintez problemləri və tərtibatın memarlıq forması, konstruksiyası ilə uyğunluğunun müəyyən edilməsi tədqiqat predmetinin göstəricilərindən biridir.

Tədqiqat predmetinin araşdırılmasında xüsusi əhəmiyyət miniatür təsvirlərdə əks olunmuş memarlıq tikililərdə istifadə olunmuş dekorativ materialların üzə çıxarılması təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Orta əsrlərə aid memarlıq abidələrindəki dekorativ tərtibat sənəti əsasən dövrümüzədək gəlib çatmış abidələr əsasında öyrənilmişdir. Belə abidələrin azlığı monumental dekorativ tərtibat sənətinin xüsusiyyətlərini, üslub və üsul məsələlərini, inkişaf mərhələlərini tam və ardıcıl öyrənməyə daima mane olmuşdur. Nəzərdən qaçırmaq olmaz ki, çoxsaylı feodal müharibələr zamanı məhz saray və vətəndaş tikililəri ilk növbədə məhv olunurdu. Həmin memarlıq tikililərində monumental dekorativ tərtibatın səviyyəsi və bədii-estetik xüsusiyyətləri daima qaranlıq qalırdı.

Artefaktların azlığı bu problemin həlli üçün yardımçı material olan - həmdövr kitab təsvirlərinin(miniatürlərin) tədqiqata cəlb edilməsini zəruri etmişdir. Müxtəlif təyinatlı və müxtəlif təbəqələrə aid memarlıq tikililərin və onların daxili və xarici tərtibatlarının miniatür təsvirlərdə yer alması bu problemin həlli üçün əhəmiyyətli mənbə olmasını sübut etmişdir.

Tədqiqatın elmi yeniliyi ilk növbədə bu problemin həlli üçün yeni, lakin həmdövr olan mənbələrin cəlb olunmasındadır. Klassik ədəbiyyatın süjetlərini illüstrə edən belə miniatürlərdə saray və vətəndaş tikililərindəki müxtəlif tərtibat üsulları və üslubları kitab rəssamları tərəfindən böyük həvəslə təsvir olunmuşlar. Belə təsvirlərin sistemləşdirilməsi, xronoloji ardıcıllıqla təhlili o dövrlərdə dekorativ tərtibat işlərin təzahür formalarını və inkişaf istiqamətlərini daha əhatəli öyrənməyə imkan vermişdir.

Tədqiqat qarşısında ilk dəfə qoyulmuş və həll olunmuş problem müxtəlif miniatür məktəblərində memarlıq tikililərin özünəməxsus təsvir prinsiplərinin müqayisəli şəkildə təhlil olunması olmuşdur. Bu özünəməxsusluqların həmin tikililərin dekorativ tərtibatında da özünü büruzə verməsi faktiki materiallar əsasında təsdiqini tapmışdır.

Miniatürlərdə təsvir olunmuş memarlıq tikililərin dekor xüsusiyyətləri araşdırılarkən, ik dəfə həmin dekorun reallıqda icra olunduğu texnologiyaların və materialların real prototiplər əsasında yaradılması sübut olunmuşdur.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqat işi bütövlükdə Azərbaycan və Şərq incəsənətinin öyrənilməsi məsələsində yeni bir addım olaraq, İncəsənət tarixinin dərinləşdirilməsinə və genişləndirilməsinə xidmət edir.

Tədqiqat nəticəsində əldə olunmuş nəticə, müddəa və qənaətlər Orta əsrlərdə Dekorativ-tətbiqi incəsənətin mühüm sahəsi olan memarlıq abidələrində bədii tərtibatın səviyyəsi haqqında bilikləri artıraraq, Xüsusi kurs kimi Rəssamlıq Akademiyası, Azərbaycan Dövlət və mədəniyyət Universitetinin Dekorativ-tətbiqi incəsənət ixtisaslarında təhsil alan tələbələr üçün faydalı metodoloji material kimi istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "Təsviri incəsənət tarixi" kafedrasında yerinə yetirilmiş və kafedra iclasında müzakirə olunmuşdur. Araşdırmanın əsas məzmunu, elmi müddəaları və nəticələri 7 elmi məqalədə öz əksini tapmışlar.

Dissertasiyanın quruluşu. Tədqiqat işi Giriş, üç fəsil, Nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın



müfəssəl təsviri taxt-gahı haşiyələndirən baş-tağın təsviri ilə əvəz edilib. Burada dekorativ baş-tag şərti olaraq saray ideyasını ifadə edir. Baş-tağın dekorunu nəbati naxışlı haşiyələr, kətəbələr və inkrustasiyalı timpanlar təşkil edirlər.

XVI əsrin birinci yarısında və ortasında memarlıq tikililərin interyer və eksteryer tərtibatlarının miniatürlər əsasında təhlili aşağıdakı nəticələri əldə etmişdir:

1. Tikililərin bəzək sisteminin topoqrafiyası əksər halda binaların bədii-konstruktiv hissələri ilə üst-üstə düşür. Ən zəngin tərtibatlar binaların fasadlarında, giriş qapılarında, pəncərə və eyvanların məhəccərlərində və tikililərin karniz hissələrində yerləşdirilirdilər;

2. Memarlıq abidələrinin xarici dekorativ tərtibatında əsasən nəmişliyə və iqlimə dözümlü olan kaşılı dekordan, interyerlərdə isə kaşılı kompozisiyalarla monumental - dekorativ divar rəngkarlığının sintezinə üstünlük vermişlər.

3. Dekor materialı kimi xaricdən gətirilmiş mərmər və digər yarımqiymətli minerallar əsasən saraylarda kiçik dekorativ pannolar şəkilində istifadə olunmuşlar.

İri divar səthlərinin şəbəkəvari həndəsi dekorla (bir çox hallarda kaşı lövhələrlə) tərtib etmək ənənəsi Osmanlı Türkiyəsinin memarlığında da geniş yayılmışdır. 16-cı əsrin ortalarına və ikinci yarısına aid Osmanlı miniatürlərindəki memarlıq tərtibatlarının miniatürlərdəki təsviri bu fikiri söyləməyə imkan verir.

Osmanlı miniatürlərində təsvir olunmuş memarlıq tikililəri özünün reallığı ilə bərabər, obyektiv konstruksiya, plastika və dekor realizmi ilə seçilirlər. Belə təsvirlərdə rəssamlar bir çox halda interyerlərin dekorativ tərtibatına deyil tikililərin xarici görünüşlərinin, siluetlərin tarixi obyektivliyinə daha çox diqqət yetirmişlər.

16-cı əsrin 80-90-cı illərində memarlıq tikililərindəki dekorativ tərtibat tədricən azalmağa doğru gedir. Bu dövrə aid əlyazma kitabların miniatürlərindəki şəhər və ayrı-ayrı imarətlərin təsviri bunu deməyə əsas verir. Feodalizmin böhran keçirdiyi bu dövrdə istər şəxsi, istərsə ictimai memarlıq tikililərində deorativ tərtibatın azalması memarlıqda yeni tendensiyaların cərəyan etməsindən xəbər verir.

Deyilənlərə misal olaraq, 17-ci əsrin əvvəlinə aid Qəzvin əlyazmasındakı bir miniatürü nümunə kimi göstərmək olar. Bu miniatür

tərtibatında da özünü əks etdirir. Bu dövrdə yaradılan əlyazma kitabların miniatürləri real həyatda olan bu tendensiyanı açıq-aşkar nümayiş etdirirlər.

Belə miniatürlərdən biri 1525-ci ildə Təbrizdə yaradılmış Hafizin "Divan"ı əlyazmasının "Meyxanada" adlandırılmış miniatürüdür. Rəssam Soltan Məhəmmədə aid edilən bu miniatür Kembric şəhərinin "Foqq" muzeyində saxlanılan əlyazmanı bəzəyir. Miniatürdə təsvir olunmuş memarlıq tikilisinin maraqlı cəhətlərindən biri ondadır ki, biz burada şəxsi saray və ya malikanə deyil, meyxana tikilisinin nümunəsi ilə qarşılaşırıq. İki mərtəbəli meyxananın memarlıq quruluşunda saraylarda olduğu kimi baş-tağlara, taxt olan rəsmi qəbullar zalına və ya saray otaqlarına rast gəlmirik. Meyxananın otaqları təxminən eyni konstruktiv mahiyyətə malikdirlər və bundan irəli gələrək, onların dekorativ tərtibatı da saraya məxsus deyil, daha çox dəbdəbəli karvansaraya məxsusdur.

Bu əlyazmadan iki il sonra yenə də Təbrizdə, Soltan Məhəmməd tərəfindən yaradılmış digər bir Hafizin "Divan"ında (1526-27) rəssam məscid tikilisinin interyer tərtibatını böyük həvəslə təsvir etmişdir. Kembric Universitetinin Sackler fondunda saxlanılan əlyazmanın bu miniatürü "Məsciddə qalmaqal" adlanır və ortodoksal müsəlmanlarla sufi təriqətinin nümayəndələri arasındakı dini disput nəticəsində yaranmış qalmaqalı təsvir edir. Miniatürdə məscid zalının mehrab və minbər yerləşdiyi hissəsi təsvir olunmuşdur. Kompozisiyanın əsas hissəsini bilavasitə məscidin ibadət zalında baş verən təlaş təşkil edir.

Saray interyerinin rəng koloritinin otaqların təyinatlarından asılı olması bir çox əlyazmaların miniatürlərindən aydın olur. Belə ki, otaqların rəsmi qəbullar hissəsi adətən tənzimlənmiş koloritdə, yataq otaqları sakit, çox vaxt soyuq koloritdə, ziyafətlər otağı isə şux və oynaq koloritdə tərtib olunurdu. 1530-cı ildə Şirazda yaradılmış "Şahnamə"nin "Ərdəşir və Gülnar" miniatürü və onun kolorit həlli bu fikri bir daha təsdiq edir.

Tamamilə fərqli dekor koloritinə biz rəssam Soltan Məhəmmədin 1530-cı ildə Hafizin "Divanı" üçün yaratdığı "Sam Mirzənin saray məclisi" miniatüründə rast gəlirik. Keçmiş Kartye, indiki Foqq muzeyi kolleksiyasında saxlanılan əlyazmanın bu miniatüründə mürəkkəb, spiralvari bir kompozisiya yaradılmışdır.

Saray təsvirlərindən biri "Xəmsə"nin (1539-43) "Xosrov və Şirin" poemasına çəkilmiş "Xosrov və Şirin taxtada" miniatüründə diqqəti cəlb edir. Rəssam Ağa Mirək tərəfindən yaradılmış bu miniatürdə sarayın



məzmunu 128 səhifədə öz əksini tapmış, illüstrasiyalar isə albom şəkilində dissertasiyaya Əlavə kimi təqdim olunmuşlar.

## DİSSETRASİYANIN QISA MƏZMUNU

Dissertasiyanın Giriş hissəsində tədqiqat üçün seçilmiş mövzunun aktuallığı əsaslandırılır. Orta əsrlər memarlıq abidələrində dekorativ tərtibatının həmdövr əlyazma kitablarındakı miniatür təsvirlərə əsasən öyrənilməsi təşəbbüsü yeni olaraq, tədqiqat probleminin həllində yeni faktoloji bazanın və metodlarının araşdırmaya cəlb etmək imkanları verir.

Mövzunun qoyuluşu tədqiqatda elmi yeniliyin əldə olunması üçün əhəmiyyətli olaraq, memarlıq tariximizi, onun dekorativ tərtibat ənənələrini sinxron təsvirlərlə müqayisə edərək, obyektiv nəticə və müddəalar əldə etmək imkanını artırır.

Tədqiqatın I Fəsli "XIII-XIV əsrlər kitab miniatürlərində memarlıq abidələrinin dekorativ tərtibatı" adlanır və Xülakülər, Cəlairilər və Teymurilər hakimiyyətləri dövründə köçürülmüş və rəssamlar tərəfindən illüstrə olunmuş əlyazmalardakı miniatürlərin memarlıq tkililərinə və onların dekorativ tərtibatının öyrənilməsinə həsr olunmuşdur.

Xulakülər dövrünün kitab miniatürləri (XIII-XIV-cü əsrlər) klassik bədii ədəbiyyatın aparıcı süjetlərini illüstrasiya etməklə bərabər, öz zamanının memarlığı, səntkarlığı, məişəti və geyim mədəniyyəti haqqında geniş məlumata malikdirlər. Miniatürlərdə əks olunmuş bu vizual məlumatın ən əhəmiyyətli dəyəri ondadır ki, bu təsvirlər problemin öyrənilməsində sinxron mənbə olaraq qalırlar.

Miniatürçü rəssamlar əsas süjet hadisələrini təsvir edərək, bu hadisələrin hansı məkanda baş verməsini bildirmək məqsədi ilə müxtəlif memarlıq abidələrinin təsvirlərinə də diqqət yetirmişlər. Əlbəttə, bu təsvirlər əksər halda şərti xarakter daşıdığından, onlarda nəzərə çarpan memarlıq tikililəri, onların interyer və eksteryer təsvirləri şərti, dekorativ xarakter kəsb etmişlər. Lakin buna baxmayaraq, nəzərə almaq lazımdır ki, rəssamlar hər-hansı tarixi və ya ədəbi hadisəni təsvir etsələr belə, öz dövrlərinin memarlıq ənənələrindən, onların bədii-dekorativ tərtibatından və üslublarından bəhrələnmişlər.

Memarlıq tikililərin təsvirləri ilə müşayət olunan ilk İlxani kitab miniatürləri Təbrizdə, 1307-ci ildə yaradılmış Əbu Reyhan Əl-Biruninin "Qədim insanların tarixi" (Əl-Əttar əl-Bakiyyə) əlyazması olmuşdur. Kitabda Biruni müxtəlif xalqların təqvim sistemləri haqqında məlumat verərək, dünya tarixinin dövrləri və hadisələri barədə geniş məlumat vermişdir.

Belə təsvir olunmuş tarixi hadisələrdən biri Bağdad şəhərinin Xulaqu xanın başçılığı ilə monqol ordusu tərəfindən 1258-ci ildə alınması və yandırılması olmuşdur. Sonuncu Abbasi Xəlifəsi Əl-Müstəsimin hakimiyyəti dövrünə təsadüf edən bu hadisəni əks etdirən miniatür kitabda naməlum rəssam tərəfindən böyük məharətlə təsvir edilmişdir.

Miniatürdə məşhur Qızıl günbəzli Bağdad məscidinin köçərilər tərəfindən dağıdılması, qarət olunması və yandırılması öz əksini tapıb. Təsvirin mərkəzində yandırılaraq, dağıdılmış məscid günbəzi aydın təsvir olunmuşdur. Günbəzin qübbəsini bəzəyən qızıl «şişək» kəmənd vasitəsilə qoparılaraq, qarət olunur. Günbəzin karniz hissəsindən aşağıda Quran ayələrindən ibarət epiqrafik yazı inkrustasiya üsulu ilə firuzəyi rəngli kaşılı frizin mədaxilində yerləşdirilmişdir.

Həmin əlyazmanın "Xoş xəbər" miniatüründə Məryəmin yaşadığı evinin interyerindən bir fraqment təsvir olunmuşdur. Miniatür mövzusunun müqəddəs İncildən götürülməsinə baxmayaraq, heç şübhə yoxdur ki, rəssam burada özünün yaşadığı həcm-məkan mühitini əks etdirmişdir.

Baş-tağ formalı eyvanda, mütəkkələr üzərində əyləşmiş Məryəmin qarşısında ona Müjdə gətirən mələk təsvir olunmuşdur. Eyvan tağının timpanı kaşı lövhələrlə şəbəkəvari süslənərək, şəbək kompozisiyasını təşkil edir. Müsəlman dünyasında "Gireh" adlanan bu üsluba əsasən, kompozisiya həndəsə qanunlar ilə qurularaq, mürəkkəb naxış şəbəkəsini təşkil edir.

Müxtəlif növ memarlıq tikililərin və onların dekorativ tərtibat sisteminin təsviri baxımından XIV əsrin birinci rübünə aid və Təbrizdə yaradılmış Rəşidəddinin "Cəmi ət-Təvarix" əlyazmalarını göstərmək olar. Belə miniatürlərdən biri 1307-ci il (Edinburq) nüsxəsində Peyğəmbər İyeremiyanın möcüzə nümayiş etdirərək, ölmüş ulağı diriltməsi»dir.



Səmərqənd memarlığı üçün səciyyəvi olmuşdur. Bu baxımdan, miniatürlərdə əks olunmuş dekorativ tərtibatın, müəyyən mənada reallığı arxalanması fikrini irəli sürmək olar.

Vaşinqtonun "Frir" qalereyasında saxlanılan əlyazmanın memarlıq interyerlərini təsvir edən miniatürlərindən biri "Mehr və Nahidin nigahı"adlanır. Bu miniatürdə də rəssam yalnız sarayın taxt-nişan hissəsinin təsviri ilə kifayətlənməyərək, sarayın daxili və xarici görünüşünü təsvir etmişdir. Miniatürün maraqlı cəhətlərindən biri ondadır ki, biz burada nadir hallarda təsvir olunan hökmdarın yataq otağının təsvirinə rast gəlirik. Mehr və Nahidin toydan sonra uzaqlaşdıqları gəlin otağı sarayın ən bəzəkli interyerlərindən biri kimi təsvir olunmuşdur. Taxtın arxasındaki divar yarıya qədər kaşı pannonu ilə bəzədilmişdir, pannonun ornamental kompozisiyasının əsasını mürəkkəb həndəsi motivlərin şəbəkəvari yerləşdirilməsi təşkil edir. Yataq otağını sarayın digər hissəsindən ayıran Baş-tağın kaşılı timpanları inkrustasiya üsulu ilə tərtib olunmuş nəbati motivlərdən ibarətdir. Otağın arxa divarından bağa açılan pəncərədə çiçək açmış ağac təsvirinin görüntüsü dekorativ tərtibatın ayrılmaz tərkib hissəsi kimi qavranılır.

Buxara miniatür məktəbinin əlyazmalarını bəzəyən miniatürlərlə müqaisədə Təbriz miniatürlərindəki interyer və eksteryer tərtibatları daha zəngin təsvir olunmuşlar. Bu miniatürlərdə saray məkanlarının həcm-məkan quruluşu və onları bəzəyən dekorativ kompozisiyalar üzvü vəhdət təşkil edirlər. Divar sahələri daha sıx naqqaşlıqla doldurularaq, saray üslubuna uyğun tərtib olunmuşlar.

Bu fikiri təsdiq edən miniatürlərdən biri Təhmasib "Şahnamə"sini bəzəyən "Zəhhəkin yuxusu" illüstrasiyasıdır. 1523-24 illərə aid edilən əlyazmanın bu miniatürü şəxsi kolleksiyada saxlanılır və saray həyatının maraqlı görüntüsünü əks etdirir. İki mərtəbəli saray tikilisinin geniş mənzərəsini yaradan rəssam Mir Müsəvvir vahid kompozisiyada sarayın daxili və xarici quruluşunu, onun hərəmxanasını, yataq otağını, eyvanını, həyətini və bağını təsvir etməklə sarayın müxtəlif interyerlərinin və eksteryerinin dekorativ tərtibatını böyük məhəbbətlə əks etdirmişdir. Sarayın dekorativ tərtibatında demək olar ki, bəzək üsullarının və texnologiyalarının hamısından nümunələr dəqiqliklə təsvir olunmuşlar.

Saray həyatında, məişətdə dəb-dəbənin, kaş-kaşanlığın artması Təhmasibin hakimiyyəti illərində yaranan memarlıq tikililərin dekorativ

ilə əlaqədardır. Real aləmə artan maraq, maddiyatdən alınan hisslərin dəyərləndirilməsi və nəhayət, feodal həyatın təmtəraqlı və zəngin aksesuarlarla bəzədilməsi miniatür təsvirlərində də özünü biruzə verir.

Saray kompleksinin zəngin tərtibatına 1523-24-ci illərdə Təbrizdə yaradılmış bir əlyazma kitabının miniatüründə rast gəlirik. Təhmasib "Şahnamə"si kimi tanınmış bu əlyazmanın miniatürü "Falçı Zəhhəkin taleyini söyləyir" adlanır və sarayın interyeri ilə bərabər, eksteryer təsvirini xırdalıqlarla əks etdirir.

Zəhhək saray interyerinin mərkəzində, falçının sözlərini eşidərək, huşunu itirmiş halda təsvir olunmuşdur. Sarayın taxt-nişan adlanan bu hissəsi həddən-ziyada zəngin tərtibata malikdir. Belə ki, Zəhhəkin taxtı qızıldan hazırlanmış və dekorativ minalı günbəzlə örtülmüşdür. Taxt-nişanın ətraf divarları kaşı lövhələrdən ibarət şəbəkə kompozisiyaları ilə bəzədilmişdir. Bütün bu görüntü iri baş-tağın daxili hissəsində təsir olunmuş və vahid bir kompozisiya təşkil edir. Miniatürün bu kompozisiyası saray eksteryeri ilə ələqaləndirilmişdir. Sarayın qarşısında diqqəti cəlb edən saray meydanı, saray bağı və uzaqda görünən dağ kompozisiyanı tamamlayaraq, böyük bir məkanın təsviri yaradır. Rəssam san ki bu məkanla kifayətlənməyərək, sarayın baş günbəzinin xarici görünüşünü miniatür çərçivəsindən çıxmış vəziyyətdə təsvir etmişdir.

İnteryer tərtibatlarında fərqli xüsusiyyətlər Orta Asiya miniatürlərində görünməkdədir. Bu regionun miniatür ənənələri hələ XV-ci əsrdə, Herat miniatür mərkəzinin çiçəklənməsi ilə formalaşmışdır. Lakin Herat miniatür məktəbi öz dövrünün ən güclü miniatür mərkəzlərindən olmasına baxmayaraq, bu miniatür məktəbinin davamçıları olan Səmərqənd və Buxara miniatür məktəbləri öz xələfinin səviyyəsinə qalxa bilməmişdir. Buxara miniatürlərində memarlıq tikililərin təsvirlərinə böyük yer ayrılmasına baxmayaraq, təsvir olunmuş tikililərdə dekorativ tərtibatın xırdalığı, zənginliyi və kamilliyi istənilən səviyyədə olmamışdır. Bu miniatürlərdə təsvir olunmuş memarlıq tikililərin divar səthlərində boşluqlar, bəzəklə tərtib olunmayaraq boş saxlanılan interyer hissələrin çoxluğu Buxara məktəbinin miniatürləri üçün səciyyəvidir.

Yuxarıda deyilən xüsusiyyətlər Buxarada 1523-ci ildə yaradılmış Məhəmməd Əssar Təbrizinin "Mehr və Müştəri" əlyazmasının miniatürləri üçün də səciyyəvidir. Miniatürlərdə əks olunmuş dekorativ tərtibatlar artıq XVI əsrdə Orta Şərqin bir növ "əyalətinə" çevrilmiş Buxara və



Miniatürün sağ-yuxarı hissəsində XIV əsrə xas olan yaşayış evinin fasadı təsvir olunmuşdur. İki mərtəbəli binanın yuxarı mərtəbəsi eyvanla (balkon) tamamlanmışdır. Aşağı mərtəbə isə, sütunlu zal tipinə uyğun gəlir.

Tikilinin dekorativ tərtibatı əsasən eyvan və sütunlu zal hissəsindədir. Eyvanın məhəccəri ağacdan yonulmuşdur, eyvanın yan tərəflərini bəzəyən dekorativ elementlər eyvana tağvari forma verərək, onun dekorativliyini artırır.

Aşağı mərtəbənin sütunları nəbati mənşəli formalı kapitel və bazalarla tamamlanmışdır. Miniatürdən göründüyü kimi, o vaxtlar sütunların səthləri ornamental motivlərlə bəzədilərək, əlvan rənglərə boyanırdılar.

İnteryer təsvirləri əlyazmanın “Avraam və üç səyyah”, “Dehli sultanı Ala əd-Din əmisi Firuz şaxı edam edir” və digər miniatürlərdə nəzərə çarpırlar. Bütün bu təsvirlər rəssama həmdövr olan saray interyerlərini əks etdirirlər.

Müxtəlif təyinatlı bina və tikililərin dekorativ tərtibatı baxımından «Cəmi ət-Təvarix» əlyazmasının London nüsxəsi (1314) maraq doğurur. Dekorativ süsləmə işlərinin miniatürdə əksi baxımından «Məhəmməd peyğəmbərin məsləhəti ilə Kəbəyə qara daşın bərkidilməsi» miniatürü diqqəti cəlb edir. Miniatürdə Kəbənin quruluşu, dekorativ tərtibatı və üst örtüyü xırdalıqlarla təsvir olunmuşdur. Kəbənin divarları yaxşı yonulmuş daşların dekorativ hörgüsü vasitəsilə bəzədilmişdir. Kəbənin giriş qapısı qızıl və qiymətli ağaclar vasitəsilə nəbati naxışlarla bəzədilmişdir. Kəbənin qara üst örtüyü qızılı rəngli, islimi naxışlı haşiyə ilə tamamlanmışdır.

XIV əsrin saray və zadəgan evlərinin interyer və eksteryerlərinin təsviri baxımından Böyük Təbriz «Şahnaməsi» 1330-1340 (Demott) maraq doğurur. Belə miniatürlər sırasında «Böyük İsgəndər taxtda», «İsgəndərin cənazəsi üzərində ağlaşma», «Nuşirəvan Mehbudun evində nahar edir», «Fəridunun və həyat yoldaşının İsfəndiyarın ölümünə ağlamaları», «Zəhhək taxtda», «Sinduxt qızının məhəbbətindən xəbər tutur» və başqa miniatürləri göstərmək olar.

Miniatürdə saray divarlarının bədii tərtibatı diqqəti cəlb edir. Belə ki, təsvirlərdən göründüyü kimi, divarların dekorunu əksər halda dekorativ divar boyakarlığı təşkil edir. Saray divarlarının aşağı 3/2-si

ornamental motivlərlə, yuxarı 3/1 isə ornamental pannolar vasitəsilə tərtib olunmuşdur. Bu iki hissəni kufi xətti ilə yazılmış epiqrafik friz ayırır. Saray divarlarını bəzəyən nəbati naxışlar, gül-çiçək və ağac təsvirləri cənnət obrazını yaradırlar.

Yaşayış interyerinin və onun dekor xüsusiyyətlərinin daha müfəssəl təsvirinə biz Almaniyanın Berlin şəhərində «Şərq mədəniyyətləri» muzeyində saxlanılan məşhur Dits albomunun miniatürlərində rast gəlirik. Burada da biz yüksək təbəqəyə məxsus yataq otağını və onun bədii tərtibatını müşahidə edirik. Təsvirdən göründüyü kimi, yataq otağının ən zəngin elementi dörd-ayağı yataq taxtıdır. Taxtın baş hissəsi inkrustasiya texnikası ilə yaradılmış təsviri pannolarla bəzədilmişdir. Otağın döşəməsi şəbəkə üsulu ilə yığılmış həndəsi ornamental dekordan ibarətdir. Divarlarda nəzərə çarpan pəncərə,qapı və taxçaların kənarları ornamental haşiyələrlə bəzədilərək, evin zəngin dekorativ tərtibatını tamamlayırlar.

Bu dövrə aid dini tikililərin interyer tərtibatları da diqqəti cəlb edir. Əsasən İslam dininin tələblərinə uyğun olaraq, süjetli təsvirlərdən imtina edən belə tərtibatlar sırf ornamental və epiqrafik xarakter daşımışlar. Bu dövrün məscid interyerlərindən biri Təbrizdə 1350-60-cı illər ərzində yaradılmış «Merac-namə» əlyazmasını və onun miniatürlərini göstərmək olar.

İnteryer təsvirlərinin xırdalığı və dekorativ təfərrüatları baxımından Türkiyənin İstanbul şəhərində, Top-qapı sarayı muzeyində saxlanılan (Xəzinə. 2153) 1360-70 illərdə Təbrizdə hazırlanmış «Şahnamə» əlyazmasını və onun miniatürlərini göstərmək olar. Sultan Uveys Cəlair hakimiyyəti dövrünə və onun şəxsi sifarişi ilə hazırlanmış bu əlyazma «Cəlair Şahnaməsi» adı ilə də məşhurdur. Böyük ustad-rəssam Şəmsəddin Təbrizi tərəfindən yaradılmış bu miniatürlərdə ilk dəfə interyer və eksteryerlərin bədii xüsusiyyətləri, dekorativ gözəlliyi böyük diqqət və sevgi ilə təsvir olunmuşdur. İnteryer tərtibatının zənginliyi bu əlyazmanın digər bir illüstrasiyasında “Cəmşid insanlara sənətkarlıq öyrədir” miniatüründə diqqəti cəlb edir. Cəmşid öz sarayında, sənətkarların ətrafında, hərbi silah-sursat və zireh hazırlayan zaman təsvir olunmuşdur. Sərbəst və həyati bir kompozisiya yaradan rəssam baş verən hadisəni və saray mühitini çox inandırıcı, sanki naturadan müşahidə nəticəsində təsvir



3. XV-ci əsrin sonunda və xüsusilə Kəmaləddin Behzadın miniatürlərində memarlıq tikililərin bədii tərtibatı rəng, material və texnoloji baxımdan zənginləşərək, daha yüksək bədii dəyərə malik olmuşlar.

Dissertasiyanın III Fəsli XVI-XVII əsrlər memarlıq abidələrində dekorativ tərtibat sənətinin vəziyyəti adlanır və XVI-XVII əsrlərdə yaradılmış miniatür təsvirlərindəki memarlıq tikililərin eksteryer və eksteryer tərtibatlarının təhlilinə həsr olunub.

XVI-XVII-ci əsrlərdə Orta əsrlər mədəniyyəti öz yeni inkişaf mərhələsinə qədəm qoyur. Tarixşünaslıqda və mədəniyyətşünaslıqda "inkişaf etmiş orta əsrlər" kimi qəbul olunmuş bu tarixi mərhələ feodal dövlətlərin, onların mədəniyyətinin çiçəklənməsi ilə xarakterizə olunur.

Xalq sənətkarlığı ilə bərabər professional sənətkarlığın da inkişafı yüksək inkişaf mərhələsinə qədəm qoyur. Saray karxanalarında çalışan sənətkarlar şahın və ali təbəqənin zövqünə uyğun sənət əsərləri yaradaraq, sarayların interyer və eksteryerlərini bəzəyən dekorativ kompozisiyalar ərsəyə gətirmişlər. Müxtəlif dekorativ materiallardan istifadə edən naqqaşlar müxtəlif rəng təbii daşlardan, mərmərdən, kəhrəbadan, firuzə və digər qiymətli daş-qaşla interyerləri bəzəməkdə davam etmişlər. Təbii materiallarla bərabər interyerlərin dekorativ tərtibatında kaşıkarlıq sənətinin nailiyyətlərindən də istifadə olunur. İnkrustasiya texnikasının geniş yayıldığı bu dövrdə kaşı lövhələrin modul prinsipi ilə yığılması zəngin ornamental kompozisiyaların saray divarlarını bəzəməsi ilə nəticələnir.

İnteryer tərtibatlarında geniş tətbiq olunan sahələrdən biri də dekorativ divar boyakarlığı olmuşdur. Divarları bəzəyən boyakarlıq pannoları həm süjetli, həm də ornamental xarakter daşımışlar. Bir çox halda yuxarıda adı çəkilən müxtəlif tərtibat texnikaları və materialları sintez olunaraq, tikililərin tərtibatında ansambl şəklində tətbiq olunmuşlar.

Real həmdövr interyer və eksteryer tərtibatları həmdövr əlyazma kitabların rəssamlarını da ilhamlandırmışlar. Belə ki, bu dövrün əlyazma kitablarında illüstrasiya xarakterli miniatürlərdə artmış naqqaşlıq öz mənbəyini bilavasitə belə saray tərtibatlarından alaraq, kitabları sifariş etmiş hökmdarların və ali feodal aristokratiyasının yaşadıqları saraylara uyğun interyer və eksteryerləri təsvir etmişlər.

Bu dövrün müxtəlif təyinatlı tikililərin və onların dekorativ tərtibatlarının miniatürlərdə müfəssəl təsvir olunması 16-17-ci əsrlərdə feodal cəmiyyətə məxsus təsviri və dekorativ sənətlərdə dünyaviliyin artması

çəkilmiş "Dərvişlərin məclisi" miniatüründə müşahidə edirik. Əlyazma miniatürlərini Herat miniatür məktəbinin görkəmli ustad-sənətkarlarından biri olan Mirək Nəqqaş yaratmışdır.

Məclis keçirilən zal frontal baxışdan yaxın məsafədən təsvir olunduğundan rəssam interyer tərtibatının xırda detallarınadək təsvir etməli olmuşdur. Belə ki Sufi şeyxinin əyləşdiyi yerin arxa divarında xırda dekorativ mehrab təsvir olunaraq, interyerin kompozisiya mərkəzi kimi qavranılır. Mehrabın haşiyəsi və daxili ortadan aşağı istiqamətə kaşılı dekorativ kompozisiya ilə bəzədilmiş, yuxarısı isə «stalaktit tipli» plastik kompozisiya ilə tamamlanmışdır.

XV-ci əsrin sonunda öz miniatür təsvirlərində müxtəlif memarlıq tikililərin təsvirinə geniş yer verən görkəmli rəssamlardan biri də "Şərqin Rafaeli" adlandırılmış Kəmaləddin Behzad olmuşdur. Kəmaləddin Behzadın yaratdığı miniatürlər sırasında hamam və onun daxili dekorativ tərtibatının təsvirinə də rast gəlmək mümkündür. Belə təsvirlərdən biri 1494-ci ildə Heratda yaradılmış Nizami Gəncəvinin "Xəmsə"sinə çəkilmiş "Harun əl-Rəşid və bərbər" miniatürüdür.

Behzadın miniatür təsvirləri sırasında məktəb (mədrəsə) binasının və onun dekorativ tərtibatının təsvirinə də rast gəlmək mümkündür. Belə ki, rəssamın 1494-cü ildə Herat miniatür məktəbi ənənələri əsasında yaratdığı miniatür Nizami "Xəmsə"sinin "leyli və məcnun" poemasına çəkilmiş - "Leyli və Məcnun məktəbdə" illüstrasiyasıdır.

XV əsrdə memarlıq abidələrinin dekorativ tərtibatı həmdövr əlyazma kitabların miniatürlərinə əsasən, fəsil boyu təhlil olunaraq, aşağıdakı nəticələr əldə etmək imkanı vermişdir:

1. Cəlairilər hakimiyyəti dövründə müxtəlif təyinatlı memarlıq tikililərin bədii tərtibatı əsasən iri səthlərin kəsişmələrində müxtəlif frizlərin və lokal dekorativ pannoların yayılmasında özünü büruzə vermişdir.

Dekorativ tərtibat daha çox saray və dini binalarda müşahidə olunur və tərtibatda iştirak edən materiallar və üsullar kaşıkarlıq, divar boyakarlığı və təbii daşlar, bişirilmiş kərpiclərlə bəzədilmiş səthlərdən ibarət olmuşdur.

2. Teymurilər hakimiyyəti dövründə dekorativ tərtibatın əhəmiyyəti artaraq, əksər tikililərin ayrılmaz tərkib hissəsinə çevrilir. Teymurun sənətkarların işinə yüksək qiymət verməsi, onlara himayədarlıq etməsi naqqaşlıq sənətinin yüksək mərhələyə qalxmasına səbəb olur.



etmişdir. Saray interyerinin tərtibatında divar boyakarlığı, müxtəlif qiymətli metallar (qızıl, gümüş, tunc), qiymətli ağac növləri, parça və xalçalardan istifadə olunmuşdur.

XIV əsr əlyazma kitablarında miniatür sənətinin ən yüksək inkişaf mərhələsi Cəlairilər hakimiyyəti dövrünə təsadüf edir. Bu dövrün miniatürləri ilk növbədə dekorativliyin artması ilə xarakterizə olunurlar. Dekorativliyin artması, öz növbəsində, xırda interyer detallarına, bəzək sisteminə diqqətin artırılması ilə müşahidə olunurdu. Xülakülər dövrü miniatürlərindən fərqli olaraq, Cəlair miniatürlərində «boş sahələrə», eskiz şəkilində işlənmiş divar səthlərinə artıq rast gəlmək mümkün deyil. Ornamental dekorun, müxtəlif materialların və aksesuarların təsvirini yüksək həddə gətirib çıxaran Cəlair rəssamları, bəzək sisteminin kamilliyi və zənginliyinin əldə olunması uğrunda san ki yarışa girmişlər.

XIV əsrin son onilliklərində yaşayış evlərinin və sarayların dekorativ tərtibatında dəyişikliklər nəzərə çarpır. Bu dəyişikliklər əlbəttə kompozisiyanın tədricən mürəkkəbləşməsindən irəli gəlir, belə ki, miniatürlərin kompozisiyalarına süjetin əsas hadisəsi ilə bərabər – köməkçi xırda "müşayiətçi süjetlərin" daxil edilməsi rəssamları kompozisiya məkanını əlavə «mikro-məkanlarla»zənginləşdirməyə sövq etmişdir. Həmin əlyazmanın «Hind şahzadəsinin hekayəti» və «Axmaq oğrunun cəzalandırılması» miniatürlərində saray və yaşayış evinin dekorativ tərtibatı rəssam tərəfindən dəqiqliklə təsvir olunmuşdur.

Əlyazma kitabların miniatürlərində müxtəlif interyer təsvirləri ilə bərabər saray və yaşayış evlərin eksteryerlərinə də rast gəlinir. Bu miniatürlərdə müdafiə tikililəri, qəsrlərlə bərabər saray tikililərin xarici görünüşü də diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, orta əsr rəssamları memarlıq abidələrini təsvir edərkən onların xarici görünüşünə, dekorativ tərtibatın incəliklərinin təsvirinə diqqət yetirmişlər. Bu tendensiya xüsusilə də saray təsvirlərində öz inkişafını tapmışdır.

Dissertasiyanın II Fəsli "XV əsr kitab miniatürlərində memarlıq tikililərin interyer və eksteryer tərtibatlarının bədii xüsusiyyətləri" adlanır və əsasən Teymurilər, Qara Qoyunlu və Ağ qoyunlu hakimiyyətləri dövründə yaradılmış əlyazma kitablardakı miniatürləri memarlıq dekoru baxımından təhlil olunurlar.

XV əsrdə memarlıq abidələrin dekorativ tərtibatında bir sıra nəzərə çarpan dəyişikliklər müşahidə olunmağa başlayır. Bu dəyişikliklər həmin dövrdə yaradılmış kitab miniatürlərində də əks olunmağa başlayır.

İlk növbədə onu deməк yerinə düşər ki, adı çəkilən dövrdə memarlıq tikililərin növləri və tipləri inkişafa uğrayaraq, daha təkmilləşdirilmiş və mürəkkəbləşmiş formaları ilə diqqəti cəlb edirlər. İnkişaf etmiş orta əsrlərin memarlıq tikililərində dekorativ tərtibata daha çox diqqət yetirilir, interyer və eksteryerləri bəzəyən dekorlarda ümumi kompozisiya ilə bərabər, xırda detalların kamilliyinə və səlisliyinə diqqət artır.

Bu dövrün miniatürlərinə əsasən, XV əsr memarlıq tikililərində rəngə diqqət və aludəçilik artır. İnteryer və eksteryerlərin dekorunda rəng zənginliyi açıq-aydın nəzərə çarparaq, kompozisiyanın ümumi dekorativliyini artırır.

Rənglərlə bərabər, memarlıq tikililərin konstruksiyası və həcmlərində də nəzərə çarpacaq dərəcədə dəyişikliklər müşahidə olunur. Sadə quruluşa və konstruksiyaya malik olan saray, yaşayış evi, məscid və d. tikililərin əvəzinə daha mürəkkəb quruluşa malik memarlıq komplekslərin meydana gəlməsi miniatürlərdə öz əksini tapır.

Bu dövrün miniatürlü əlyazma kitablarının coğrafiyasına gəldikdə, onu qeyd etmək lazımdır ki, Teymurilər dövlətinin ən iri mərkəzlərindən biri olmuş Herat (Əfqanıstan) XV-ci əsrdə ən görkəmli sənətkarların toplandığı yer olmuşdur. Paytaxt rolunu oynamış Heratda geniş tikinti və quruculuq işləri həyata keçirilmiş və yeni bədii-dekorativ üslubun yaranması və qəlibləşməsi Orta şərqin memarlıq və incəsənətində əhəmiyyətli rol oynamışdır. Burada öz dövrün ən görkəmli miniatür rəssamı, müasir sənətşünaslıqda Şərqin Rafaeli adı ilə məşhur olan Kəmaləddin Behzad böyük bir miniatür məktəbin təməl daşını qoymuşdur.

Heratla bərabər sənətkarlığın inkişaf etdiyi şəhərlər sırasına Təbriz və Şirazı da daxil etmək lazımdır. Bu şəhərlərdə yaradılmış əlyazma kitablar və onların miniatürləri Herat miniatür məktəbinin təsirini özündə əks etdirərək, yerli bədii xüsusiyyətləri də nümayiş etdirirlər.



yayılmışdır. Ali zadəganların saray və malikanələri xaricdən kaşı lövhələrlə süslənərək daha bərbəzəkli olmuşlar.

Dekorativ tərtibat əsasən qapı, pəncərələr, tavanların karniz hissələrində və günbəzlərdə müşahidə olunur.

Bütövlükdə, miniatürlərə əsasən, Şirvan memarlığında tətbiq olunan dekorativ tərtibat barədə, belə bir fikir söyləmək mümkündür ki, bu region üçün, yerli təbii materialların tikintidə və dekorativ tərtibatda istifadəsi daha səciyyəvi olmuşdur.

15-ci əsrin son rübündə Orta Şərqin mədəniyyəti və incəsənəti öz çiçəklənmə dövrünü yaşayırdı. Saray həyatının tam formalaşması, dünyəvi feodal hakimiyyətin mütləq monarxiyaya çevrilməsi şəhərlərin, sarayların və müxtəlif dini və ictimai tikililərin yaranmasına səbəb olur. Bu tikililərdə dekorativ tərtibat işləri ən yüksək səviyyəyədək ucalırlar. Teymurun paytaxtı olmuş Heratın və Səmərqəndin yenidən tikilməsi və abadlaşdırılması tikinti və nəqqaşşılq işlərinin və sənətkarlığının inkişafına güclü təkan vermişdir.

Bu dövrün məşhur əlyazmaları və onların miniatür-illüstrasiyaları həyatda mövcud olmuş dekorativ tərtibatları dəqiqliklə əks etdirmişlər. Belə əlyazmalardan biri Nizaminin "Xəmsə"si olmuşdur. Bu dövrə aid "Xəmsə" əlyazmasının iki nüsxəsi bizim dövrədək gəlib çatmışdır. Bunlardan biri Türkiyənin Topqapı sarayı muzeyində saxlanılan "Xəmsə" (1481), və Londonda "Keyr" kolleksiyasında saxlanılan (1481) "Xəmsə" və onların illüstrasiyalarını qeyd etmək olar.

Əlyazmanın zəngin tərtibatlı eksteryer təsviri baxımından ən maraqlı miniatürü "İsgəndərnamə" poemasının ikinci hissəsi olan "İqbalnaməyə" çəkilmişdir və "İsgəndərin çobanla söhbəti adlanır".

Miniatürdə İsgəndər bilavasitə saray eyvanından çobanla söhbət edən zaman təsvir olunmuşdur. Sarayın xarici divarları kaşı lövhələrlə süslənərək, şəbəkəvari şəndəsi motivlərin təkrar olunması ilə səciyyələnirlər. Xarici divarların əlavə bəzəyi kimi, dekorativ pannolar diqqəti cəlb edirlər. Bu dekorativ pannolar kaşıkarlıq sənətinin kamil nümunələri ki inkrustasiya texnikası ilə tərtib olunmuşlar. Belə pannolar ornamental olmaqla bərabər, epiqrafik xarakter daşıyan və yüksək xəttatlıq sənətini əks etdirən kətəbə tipli pannolarla da zənginləşdirilmişlər.

Varlı malikanəsinin interyer təsvirinə biz 1485-ci ildə Heratda yaradılmış Nizami Gəncəvi "Xəmsə"sinin "Xosrov və Şirin" poemasına

görünüşünü montaj üsulu ilə vahid bir memarlıq obrazında birləşdirə bilmişdir. Bu metod miniatür tamaşaçısına mədrəsənin həm daxilini, həm də xaricini «görməyə» imkan verir. Bu effekti əldə etmək üçün rəssam sanki mədrəsənin ön divarını «kəsib götürərək» daxili görünüşü görmək imkanı verir. Orta əsrlər müsəlman rəssamlarının memarlıq tikililərini belə metodla təsvir etmələri vahid (bir nöqtədən) baxış nöqtəsindən imtina edərək, dinamik baxış nöqtəsinə üstünlük verməlri nəticəsində mümkün olmuşdur. Ehtimal etmək olar ki, tikili haqqında daha obyektiv və hərtərəfli təsəvvür yaratmaq üçün rəssamlar iki və daha çox baxış nöqtələrinə əsasən təsvirlər yaratmışlar. Hər-hansı interyerin eksteryersiz təsviri tamlıq və kamillik ideyasına zidd olduğundan rəssamların belə metoda əl atmaları tamamilə anlaşıqlı və məntiqi görünür.

Hökmdar sarayının qəbul otağının maraqlı dekorativ tərtibatı XV-ci əsrin ortalarına aid (1445-1446) Heratda yaradılmış "Xəmsə" əlyazmasının miniatüründə rast gəlirik. Əlyazma hal-hazırda İstanbulun Topqapı sarayı muzeyində saxlanılır.

"Böyük İsgəndər Nüşabənin sarayında" miniatürü məhz belə bir saray otağının quruluşunu və dekorativ tərtibatını əks etdirir. Burada biz Böyük İsgəndərin Nüşabənin sarayına qonaq qismində gəlməsi təsvir olunub.

15-ci əsr memarlıq dekoru haqda danışdıqda biz daha çox Herat, Təbriz və Şiraz miniatürlərindəki təsvirlər haqda danışmışıq. Bu dövrün digər bir miniatür məktəbi də Şirvanda, Şirvanşahlar Xəlilüllah və Fərrux Yasar hakimiyyəti dövründə meydana gəlmişdir. Miniatür məktəbinin mərkəzi Şamaxı şəhərində, Şirvanşahların yay paytaxtında çiçəklənmişdir.

Şirvanda bu dövrdə yaradılmış miniatür təsvirli əlyazma kitablardan biri "Şirvan Antologiyası" (1468) adlanır. Bu əlyazmanın miniatürlərində memarlıq tikililərin təsvirlərinə tez-tez rast gəlinir. Belə miniatürlərdən biri «Şirvanşahın sarayında qəbul» adlanır. Miniatürdə təsvir olunmuş saraylar memarlıq quruluşuna və dekor xüsusiyyətlərinə görə biri-digərindən fərqlənir. Saraylardan biri əsasən ağ rəngli əhəng-daşından tikilmiş və daş-oyma sənəti vasitəsilə bəzədilmişdir. İkinci saray bişmiş kərpicdən tikilərək, kaşı lövhələr vasitəsi süslənərək ,dekorativ zənginliyi ilə seçilir.

Bu fraqmentlərə əsasən demək olar ki, Şirvanda interyerlərdə kaşı deyil, daş oyma naxışlar və dekorativ divar boyakarlığı daha geniş



Adları çəkilən və Orta Şərq mədəniyyəti tarixində böyük rol oynamış bu şəhərlərlə bərabər geniş quruculuq işlərinin, saray mədəniyyətinin və miniatür sənətkarlığının çiçəkləndiyi regionlardan biri də Şirvan olmuşdur. Şirvanşahların yay paytaxtı olmuş Şamaxıda görkəmli alimlər, şairlər və rəssamlar cəmlənərək, yeni bir mədəniyyət və sənətkarlıq mərkəzini yaratmışlar. XV-ci əsrin ortalarında burada yaradılmış əlyazma kitablar və onların miniatür-illüstrasiyaları burada yaranmış memarlıq abidələrin bədii-konstruktiv xüsusiyyətləri və dekorativ tərtibat sənətinin səviyyəsi barədə faktik material kimi qəbul oluna bilər.

XV-ci əsr əlyazma kitabları arasında Təbrizdə yaradılmış nüsxələri və onların miniatürlərini qeyd etmək lazımdır. Təbrizli sənətkarlar tərəfindən yaradılmış bu miniatürlərdə memarlıq tikililəri, onların dekorativ tərtibatı böyük məharətlə əks olunmuşdur. Belə əlyazma kitablardan biri Təbrizdə 1405-1410 illərdə yaradılmış və nəfis illüstrasiyalarla bəzədilmiş Nizami Gəncəvinin "Xəmsə" əsəridir.

"Xosrov və Şirin" poemasını illüstrə edən «Xosrov Şirinin qəsri qarşında» miniatüründə XV-ci əsrə xas olan qəsri deyil, saray tikilisini görürük.

Sarayın giriş qapısı tağvari formaya malik olaraq qızılı rəngli kaşı inkrustasiyası ilə bəzədilmişdir. İki taylı qapının tayları tünd rəngli palıd ağacından hazırlanıb və relyefli oymalarla tərtib olunmuşdur.

Sarayın maraqlı memarlıq elementlərindən birini bilavasitə Şirinin Xosrovla danışarkən dayandığı eyvandır (balkon). Eyvanın konstruksiyası və forması şahların əyləşdiyi taxtı xatırladır. Divar səthindən bayıra çıxmış və xırda yarımgünbəzlə örtülmüş eyvanın pəncərələri və məhəccəri ağacdan «yığma» şəbəkə üsulu ilə hazırlanmışdır. Şəbəkələrin arxasındakı şəffaf aynalar otağın işıqlandırılmasını təmin edərək, sarayın ümumi dekorativliyini artırırlar.

Əlyazmanın digər miniatürü kompozisiya baxımından tamamilə fərqlidir. Vahid təsvir daxilində sarayın interyerini və eksteryer görünüşünü əks etdirən miniatür «Fərhad Şirinin sarayında»adlanır. Şaquli kompozisiya təxminən orta hissədən üfüqi zolaqla iki hissəyə bölünüb: yuxarı hissədə sarayın eksteryeri, aşağı hissədə isə interyeri təsvir olunmuşdur. Əsas hadisə kompozisiyanın aşağı hissəsində, sarayın interyerində baş verir.

Miniatürdə təsvir olunmuş saray, onun quruluşu və dekorativ tərtibatı incə elementlərlə zəngindir. Rəng harmoniyası baxımından saray və onun tərtibatı əsasən qırmızı, mavi, yaşıl və qızılı rənglərdən ibarətdir. Miniatürün 3/2-sini saray təsviri təşkil etdiyi zaman, insanlar və süjet hadisəsi yalnız 3/1 hissəni əhatə edir. Belə mütənasiblik rəssama sarayın gözəlliyini xırdalıqlarla təsvir etmək imkanı vermişdir və ehtimal etmək olar ki, onun məqsədi məhz sarayın füsünkar gözəlliyini təsvir etmək olmuşdur.

XV-ci əsr şah sarayının eksteryer təsviri digər bir əlyazma kitabın miniatüründə yerləşdirilmişdir. 1427-ci ildə Herat miniatür məktəbində yaradılmış Səədinin «Cülüstan» əsərinin süjetlərini illüstrə edən miniatürlərdən biri « Vəzir dərviş simasında şah sarayının qarşısında peyda olur» adlanır. Bu əlyazmanın miniatürləri ustad Şəmsəddin tərəfindən Baysonqurun sifarişi ilə yaradılmışlar. Əlyazma hal-hazırda Dublin şəhərinin "Cheaster Betty" kitabxanasında mühafizə olunur.

Miniatürün təsvir sahəsinin 3/2-i bilavasitə sarayın təsvirinə ayrılmışdır. Üçmərtəbəli saray binası daş bünövrə üzərində ucaldılmışdır. Saray divarlarının xaricə səthi bişmiş qırmızı kərpiclərlə dekorativ hörgü vasitəsilə bəzədilmişdir. Kərpiclərin şəbəkəvari hörgüsü həndəsi ornamentlər yaradaraq saraya gözəllik verir. Qırmızı kərpiclərin bəziləri firuzəyi kaşı qatı ilə örtülərək, qırmızı divarların rəngini bir qədər də zənginləşdirirlər.

Daha zəngin saray tərtibatına biz Baysunqur Antologiyasının (Herat) digər bir miniatüründə - "Aşiq qoca və cavan xanım" illüstrasiyasında rast gəlirik. Miniatürün süjeti Fəridədin Attarın «Şeyx Sənan» poemasından götürülmüşdür.

Müəllifi yenə də ustad Şəmsəddin olan bu miniatür İtaliyanın Florensiya şəhərində «Tatti Settignano» muzeyinin Berenson kolleksiyasında saxlanılır. Birinci miniatürdən fərqli olaraq burada rəssam sarayın eksteryer dekoruna daha çox diqqət yetirib. Sarayın giriş qapısı, pəncərəsi və asma eyvanı (balkon) xırda ornamental motivlərlə zəngindir. Hər üç memarlıq elementinin haşiyəsi mavi və ağ rəngli kaşıların inkrustasiyası ilə frizvari kompozisiya təşkil edir. Frizlərin dekoru əsasən ornamental motivlərlə bəzədilərək bu elementləri divar səthindən ayırırlar.

Varlı təbəqəyə məxsus evin daxili konstruksiyasının və interyer tərtibatının təsvirinə biz Herat məktəbinin digər bir əlyazmasındakı



miniatürdə rast gəlirik. Burada qonaqlıq otağının maraqlı interyer quruluşu təsvir edilmişdir. Söhbət 1429-cu ildə Heratda yaradılmış "Kəlilə və Dimnə" (əlyazma Herat hakimi Əbül-ülla Nəsrollahın sifarişi ilə yaradılmışdır) əlyazmasının "Sufi məclisi" miniatüründən gedir. Paris Milli kitabxanasının kolleksiyasında saxlanılan miniatür kompozisiyasının mərkəzində sufi şeyxinin zəngin dekora malik otağında məclis keçirməsi təsvir olunmuşdur.

Otağın dekorativ tərtibatı bir çox yeni xüsusiyyətlərlə diqqəti cəlb edir. Belə yeniliklərdən biri otağın döşəməsinin yığma parket tipli olmasıdır. Parket mürəkkəb həndəsi quruluşa malik modullardan yığılaraq, son nəticədə dekorativ şəbəkə təşkil edir. Döşəmənin üzərində medalyonsuz bahalı xalça sərilmişdir.

Son dərəcə zəngin interyer və eksteryer dekoru Herat məktəbinin digər bir miniatüründə, 1430-cı ildə Baysanqur üçün yaradılmış «Şahnamə» əlyazmasının "Rüstəmin yas mərasimi" adlı illüstrasiyada diqqəti cəlb edir.

Miniatürdə məqbərə kompleksinin bir fraqmenti təsvir olunmuşdur. Buraya məqbərəyə aparan yol, məqbərə hasarının təntənəli darvazası, daxili həyət və həyətin mərkəzində tikilmiş günbəzli pavilyon tipli məqbərə daxildirlər. «Köşk» tipli, günbəzli məqbərə binasının xarici və daxili dekorativ tərtibat baxımından ən təmtəraqlı tikili kimi diqqəti cəlb edir.

Məqbərənin quruluşunu sütunları birləşdirən tağların üstündə yüksələn yaraşıqlı günbəz təşkil edir. Qızılı rəngli günbəzin üst qatını kaşı lövhələrdən ibarət ornamental «Göl» kompozisiyası bəzəyir. Günbəz stalaktitli karniz üzərində ucalır və karnizin alt hissəsi epiqrafik frizlə tamamlanmışdır. Günbəzin və karnizin kaşı lövhələrinin aparıcı rənglərini qızılı, mavi və ağ rənglər təşkil edir. Sütunları birləşdirən tağların timpanlarını islimi motivli ornamental kompozisiyalar bəzəyərək, sütunları və tağları bürüyən sarmaşıqlar effektini yaradırlar. Yaşıl rəngli sütunların kapitelləri stalaktitli formada yaradılmış, sütunların oturacaqları(baza) qızıl urnalar şəklində yonulmuşlar. Sütunların dayandığı özül (stilobat) kaşılı frizlə bəzədilmişdir.

1432-ci ildə Heratda yaradılmış Nizami Gəncəvi "Xəmsə"sinin "Leyli və Məcnun" poemasına çəkilmiş miniatür-illüstrasiyasında Leyli və Məcnunun məktəbdə dərs almaları və biri-birini sevmələri təsvir olunub. Lakin bizim üçün məktəbin təsviri, onun dekorativ tərtibatının xırda təfərrüatları kompozisiyanın əsas ideyasından heç də az əhəmiyyət kəsb etmir. Belə ki, miniatürdə rəssam mədrəsə tipli tikilinin interyer və eksteryer

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

*На правах рукописи*

**НАМИК КАМРАН оглы АБДУЛЛАЕВ**

# ХУДОЖЕСТВЕННОЕ РЕШЕНИЕ ИНТЕРЬЕРОВ И ЭКСТЕРЬЕРОВ ПО СРЕДНЕВЕКОВЫМ МИНИАТЮРАМ

6218.01- Декоративно-прикладное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии в области искусствоведения

**БАКУ – 2013**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**NAMİQ KAMRAN OĞLU ABDULLAYEV**

# ORTA ƏSRLƏR MİNİATÜRLƏRİ ƏSASINDA İNTERYER VƏ EKSTERYERLƏRİN BƏDİİ HƏLLİ

İxtisas: 6218.01 – Dekorativ-tətbiqi sənət

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcə almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir

Elmi rəhbər: **Telman İsmayıl oğlu İbrahimov**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

Rəsmi opponentlər: **Səlhab İsa oğlu Məmmədov**
*Xalq rəssamı, professor*

**Günay Nizami qızı Qafarova**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Aparıcı təşkilat: **Azərbaycan Milli İncəsənət muzeyi**

Müdafiə "07" iyun 2013-cü il tarixində saat $11^{00}$-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində FD.02.191 daimi Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1029, Bakı şəh., Heydər Əliyev prospekti 58, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının iclas zalı

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "07" may 2013-cü il tarixində göndərilmişdir.

**FD.02.191 daimi Dissertasiya Şurasının elmi katibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru: X. Z. Əsgərova**

Sifariş №250; tiraj100
"MBM" mətbəəsində
çap olunmuşdur